# Bakı - yolların qovuşduğu məkan

Müstəqillik tarixi ərzində daim beynəlxalq layihələrə uğurla ev sahibliyi edən və bu missiyanı ləyaqətlə yerinə yetirən Respublikamız yenidən dünyanın diqqət mərkəzinə düşmüşdür. Belə ki, paytaxtımız - da indi də UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyası keçirilmişdir.




Təxminən bir həftə davam edən tədbir dekabrın 2-də öz işinə Bakıdakı "Marriott Absheron" hotelindən start götürmüşdür. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sədrliyi ilə gerçəkləşdirilən sessiyada 116 ölkədən 780-dək nümayəndə iştirak etmişdir.

Tədbiri açıq elan edən nazir Ə.Qarayev UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci iclasının əlamətdar bir vaxtla, təşkilatın qeyri-maddi mədəni irsin qorunması üzrə Konvensiyasının 10 illik yubileyi ilə üst-üstə düşdüyünü diqqətə çatdırmışdır.

Bildirmişdir ki, dünyanın 156 ölkəsinin dəstək verdiyi Konvensiyanın qəbulu mədəni müxtəlifliyin təşviqində, beynəlxalq strategiyaların inkişaf etdirilməsində əsas mərhələ olmuşdur: "Beynəlxalq cəmiyyət ilk dəfə olaraq mədəni təzahür və ifadələrin qorunması ehtiyaclarını tanıyıb. Konvensiyanın 10 illik yubileyi ilə əlaqədar 2013-cü ilin əvvəllərində qeyri-maddi mədəni irsin qorunması ilə bağlı aidiyyəti tərəfdaşların yerli, regional və beynəlxalq səviyyədə təşkil etdiyi tədbirlər və fəaliyyətlər haqqında məlumatları dünya ictimaiyyəti ilə paylaşmaları üçün platforma yaradılıb".

Əbülfəs Qarayev vurğulamışdır ki, ötən dövr ərzində Azərbaycan Konvensiya çərçivəsində xalqımızın mədəni-mənəvi dəyərlərini əks etdirən çox qiymətli nümunələrin müxtəlif nominasiyalarda artıq dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinə nail olmuşdur.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev Prezident İlham Əliyevin tədbir iştirakçılarına məktubunu diqqətə çatdırmışdır. E.Əfəndiyev UNESCO-nun mühüm iclasının Azərbaycanda keçirilməsinin əlamətdar bir hadisə olduğunu qeyd etmişdir.

Diqqətə çatdırmışdır ki, Azərbaycanla UNESCO arasında olduqca işgüzar münasibət yaranmış və bu əlaqələr qarşılıqlı hörmət və etibara söykənir. Ötən müddətdə Azərbaycan ilə UNESCO arasında əlaqələr daha da genişlənmiş, ölkəmizin bir çox maddi və qeyri-maddi sərvətləri, xalqın mənəvi həyatında mühüm rol oynayan görkəmli şəxsiyyətləri bu qurum vasitəsilə geniş təbliğ olunmuşdur. Bu baxımdan, Prezident İlham Əliyevin sessiya iştirakçılarına təbrik məktubu Azərbaycan hökumətinin UNESCO ilə əməkdaşlığın inkişafına verdiyi qiymət kimi dəyərləndirilməlidir.

Sonra UNESCO-nun baş direktoru İrina Bokovanın sessiya iştirakçılarına ünvanlanan video müraciəti nümayiş olunmuşdur. O, müraciətində bu möhtəşəm tədbirə ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirmiş, UNESCO ilə əməkdaşlığa verdiyi xüsusi önəmə görə ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkür etmişdir. Burada həmçinin qeyd olunmuşdur ki, Azərbaycanda keçirilən sessiya iştirakçılarının sayına görə rekord nəticədir.

Vurğulanmışdır ki, qeyri-maddi mədəni irs bəşəriyyətin ən dəyərli təzahürlərindən biridir. O, ölkələr arasında dialoq və anlaşma üçün körpü rolunu oynayır. Azərbaycanın sədrlik etdiyi iclasa öz dərin inamını ifadə edən baş direktor sessiyanın işinə uğurlar arzulamışdır.

Əbülfəs Qarayev diqqətə çatdırmışdır ki, sessiyada çıxışlar reqlamentə uyğun olmalıdır və hər bir ölkənin bu siyahıya daxil edilməsi üçün bir təklif vermək imkanı var. Qeyd olunmuşdur ki, sessiya müddətində iştirakçı ölkələrin təklif etdikləri irs nümunələri ətrafında təqdimatlar keçiriləcək və geniş məlumat veriləcəkdir.

Tədbir iştirakçılarını proqramla tanış etmək üçün söz alan UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyasının katibi xanım Sesil Düvel iştirakçıları salamlayaraq bildirmişdir ki, sessiyanın gedişi təmsil etdiyi qurumun internet saytında canlı yayımlanır və çıxışlar ingilis, fransız, ispan, ərəb və Azərbaycan dillərində sinxron tərcümə olunmaqdadır. Katib həmçinin qeyd etmişdir ki, sessiyanın bütün sənədlərini qurumun internet saytından yükləmək mümkündür.

Sessiyanın proqramına 8-ci sessiyanın gündəliyinin qəbul olunması, müşahidəçilərin qəbulu, prosedur qaydalarına düzəlişlər, komitənin 2012-2014-cü ilə dair işləri haqqında Baş Assambleyaya hesabatı və s. daxil edilmişdir.

Gündəlikdə duran əsas məsələ isə Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irsin siyahısı və bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına təklif olunan nominasiyalar üzrə qərarların verilməsidir. Sessiyada Konvensiyanın milli səviyyədə icrası ilə bağlı dövri hesabatların dinlənilməsi, geniş tərkibli müzakirələr və mədəni tədbirlər planlaşdırılmışdır. S.Düvel bildirmişdir ki, sessiya müddətində təqdim olunan məsələlər ətrafında geniş fikir mübadiləsi aparılacaq və qəbul olunacaq qərarlar dünyada sülhün daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Tədbir iştirakçılarına Azərbaycanın mədəniy-

yətini, tarixini, incəsənətini və müasir inkişafını əks etdirən müxtəlif dillərdə hazırlanmış kitab, jurnal və digər çap məhsulları təqdim edilmişdir.

Sonra mədəniyyət sektorunda UNESCO standartlarının müəyyənləşdirilməsi işlərinə dair Daxili Nəzarət Xidmətinin qiymətləndirilməsi və mədəniyyət sektorunda standartların müəyyənləşdirilməsi işinin metodikasının auditi üzrə hesabat müzakirə edilmişdir. UNESCO-nun Daxili Audit Xidmətinin direktoru Bert Keuppensin hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.

Vurğulanmışdır ki, Daxili Nəzarət Xidməti qeyri-maddi mədəni irsin müdafiəsi üzrə Konvensiyanın təsirinin qiymətləndirilməsi, həmçinin mədəniyyət sahəsi üzrə UNESCO-nun 6 konvensiyasının işçi metodlarının auditini yekunlaşdırmışdır. Sənəddə bu hesabatlar və tövsiyələr təqdim olunmuşdur. Qiymətləndirmə əslində mədəniyyət sektorunda aparılan işin standartlarını əhatə edən daha böyük fəaliyyətin bir hissəsidir. Bu işin birinci hissəsi konvensiyanın 2013-cü ilin qiymətləndirməsinə əsasən işçi üsullarının auditini əhatə edəcəkdir. Yekun hesabat 2014-cü ilin yazında UNESCO-nun İcraiyyə Şurasına təqdim olunacaqdır.

"Qiymətləndirmədə əsas diqqət siyasətə və qanunvericiliyə yönəlmişdir. UNESCO BMT-nin aparıcı bir qurumudur və çalışır ki, normativ işin təsirini nümayiş etdirsin. Biz daxili və xarici xidmət orqanları ilə birlikdə bu işi həyata keçirmişik. Quruma üzv dövlətlər və QHT-lər də bu işdə yaxından iştirak etmişdir. Hesabat dövründə 125 nəfərdən çox insandan müsahibə alınmış, müxtəlif araşdırmalar aparılmışdır".

Daha sonra sənədlə bağlı müzakirələr keçirilmişdir. Braziliya, Çin, Latviya, Mərakeş, İspaniya, Namibiya, Peru, Azərbaycan və digər ölkələrin nümayəndələri çıxış etmiş, sənədi yüksək qiymətləndirmişlər...

■

Sessiyanın ertəsi günü də maraqlı müzakirələrlə yadda qalmışdır. Əvvəlcə Hökumətlərarası Komitə Bürosunun görüşü keçirilmişdir. Sonra Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sədrliyi ilə komitənin iclası başlanmışdır. Burada iştirakçı dövlətlərin dövri hesabatları və Qeyri-Maddi Mədəni İrs Fondundan beynəlxalq yardımın istifadə olunmasına dair məlumatlar dinlənilmişdir.

Vurğulanmışdır ki, belə hesabatlar artıq üçüncü ildir komitəyə təqdim edilir. Konvensiyaya üzv dövlətlər sənədin ratifikasiya olunmasından 6 il sonra və sonrakı hər 6 ildə belə hesabatlarını təqdim etməlidirlər. Ölkələr Konvensiyanın direktivlərinə cavab verə bilmək üçün qəbul olunan qanunvericilik haqqında tənzimləyici və institusional tədbirlər haqqında məlumat verir və qeyd edilən siyahıda həmin elementlərin vəziyyətləri nəzərdən keçirilir.

İclasda məsələ ilə bağlı işçi sənəd bəndlərə uyğun oxunaraq baxılmış və Azərbaycanın da əlavəsi nəzərə alınmaqla komitə üzvlərinin səs çoxluğu ilə qəbul olunmuşdur. Sənədin müzakirəsində Belçika və Yaponiya bəndlərdə bəzi dəyişikliklər barədə fikirlərini irəli sürmüşlər.

Daha sonra UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısına salınmış nümunənin cari vəziyyəti haqqında Braziliyanın hesabatı nəzərdən keçirilmişdir. Braziliyanın təqdim etdiyi hesabat barədə məlumat verən iclas katibliyi onun üstün və zəif tərəfləri barədə fikirləri üzv ölkələrin nəzərinə çatdırmışdır.

Qeyd edilmişdir ki, Braziliya bu hesabatı 2010-cu ildən irəli sürmüş, bununla bağlı 10 illik müdafiə planı hazırlanmış və hələ də dəqiq bir nəticə əldə edilməmişdir. Hesabatla bağlı etnoqrafik araşdırmalar həyata keçirilməlidir və bu istiqamətdə müəyyən işlər görülməlidir. Təqdim olunan sənəddə əsas diqqət mədəni irsdən daha çox ətraf mühitin mühafizəsinə yönəldilmişdir.

Sonra Qeyri-Maddi Mədəni İrs Fondundan beynəlxalq yardımın istifadə olunmasına dair iştirakçı ölkələrin hesabatı nəzərdən keçirilmişdir. Bildirilmişdir ki, 2008-ci ildən Konvensiyanın 28 iştirakçı dövləti beynəlxalq yardım alır. Bu yardım 38 layihəni əhatə etməklə 35 milyon avro civarında olmuşdur. Bu sırada Afrika ölkələri üstünlük təşkil etmişdir. İşçi sənəd bəndlərə uyğun olaraq monitor vasitəsilə komitə iclasında iştirak edən nümayəndələr tərəfindən izlənilmiş, şərhlər, təklif və əlavələr nəzərə alınaraq qəbul edilmişdir.

Daha sonra Məşvərətçi Qurumun 2013-cü il üçün işinə dair hesabatı nəzərdən keçirilmişdir. İclas sədri bildirmişdir ki, qurumun hesabatına işçi metodları üzrə 2013-cü il ərzində təcrübələrin təhlili daxildir. Həmçinin təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısına salınmış nominasiyalarla bağlı bəzi nüanslar üzv ölkələrin nəzərinə çatdırılmışdır.

Vurğulanmışdır ki, nominasiyalar təqdim edilərkən tarixi əhəmiyyət məsələləri ön plana çəkilir. Həmçinin qlobal müdafiəyə ehtiyacı olan nominasiyalarda strateji əhəmiyyət də vacib amillərdən biridir.

Müzakirə edilən mövzu ilə bağlı Latviya, Çexiya, Yaponiya və İspaniyanın təklif və mülahizələri dinlənildikdən sonra nominasiyaların nəzərdən keçirilməsi günün ikinci yarısına təyin edilmişdir.

Təkliflər zamanı sənədlərin sadələşdirilməsi, nominasiyaları təqdim edən sənədlərin keyfiyyətinin yüksəldilməsi, uğurlu nominasiyaların beynəlxalq yardımla təmin edilməsi və s. barədə fikirlər səsləndirilmişdir...

■

İclasın əvvəlində Azərbaycan nümayəndə heyəti belə bir təkliflə çıxış etmişdir ki, təqdim edilən fayllarda nominasiyalar haqqında əsaslı informasiyalar verilsin. Bununla əlaqədar yaranan problemlərlə bağlı Çin, Mərakeş, Qrenada, Nigeriya, Seneqal, Qvatemala, Mali və s. ölkələrin nümayəndələri öz mülahizələrini irəli sürmüşlər.

Sonra təqdim edilən nominasiyalarla bağlı müzakirələrə başlanılmışdır. İlk olaraq Azərbaycan heyəti tərəfindən təqdim edilən "Çövkən - qədim atüstü Qarabağ oyunu" nominasiyası müzakirə olunmuşdur. Bununla bağlı iclasda Azərbaycanın sədrliyini Braziliya əvəz etmişdir.

Azərbaycanın ənənəvi milli oyun növü olan çövkənin UNESCO-nun "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı"na salınması ilə bağlı ölkəmizin nümayəndə heyətinin məlumatı və oyun haqqında ətraflı informasiya (oyunun xüsusiyyətləri və oyunla bağlı video) iclas üzvlərinin nəzərinə çatdırılmışdır.

Bildirilmişdir ki, Azərbaycan tərəfinin hesabatı yoxlanılmış və nəzərdən keçirilmişdir. İran İslam Respublikası 4 noyabr 2013-cü ildə katibliyə nominasiya ilə bağlı məktub yollamış və Azərbaycan tərəfi bu məktuba cavab vermişdir. Hər iki məktub komitənin saytına yerləşdirilmişdir. Qeyd edilmişdir ki, hər iki tərəf bu istiqamətdə müəyyən məsələləri yoluna qoymağa müvəffəq olmuşdur.



Bundan sonra nominasiyanın qəbul edilməsi ilə bağlı iclas iştirakçılarına müraciət olunmuş və bir dəyişiklik - "Azərbaycan Respublikasında" sözü əlavə edilməklə heç bir etiraz olmadan sənəd qəbul edilmişdir.

Beləliklə, Qarabağın qədim atüstü oyunu olan çövkən UNESCO-nun "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı"na salınmış və komitə adından Azərbaycana təbriklər ünvanlanmışdır.

Nominasiyanın qəbulundan sonra mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan hökuməti və cəmiyyəti adından Komitəyə təşəkkürlərini bildirmişdir. Nazir vurğulamışdır ki, çövkən oyununun UNESCO siyahısına daxil edilməsi bütöv bir komanda işinin nəticəsində mümkün olmuşdur.

Qərarın qəbulundan dərhal sonra mədəniyyət və turizm naziri Əbülfəs Qarayev media nümayəndələrinə açıqlama vermişdir: " Çövkən Qarabağın qədim atüstü oyunu kimi Azərbaycanda çoxdan tanınır və bu gün artıq beynəlxalq ictimaiyyət tərəfindən, UNESCO Komitəsi tərəfindən bəşəriyyətin qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edildi.

Reallıq ondan ibarətdir ki, bu gün mövcud vəziyyətə görə Azərbaycanda Qarabağ atlarının saxlanılması, Qarabağ atçılıq məktəbinin inkişafı və Qarabağ bölgəsində bu oyunun tətbiqi böyük çətinlik törədir.

Düşünürəm ki, bu hadisə Azərbaycanın nəinki mədəni qələbəsi, eyni zamanda bizim diplomatik qələbəmizdir. Fürsətdən istifadə edib bu işlərə ilk gündən dəstəyini verən, mədəni irsimizə diqqət və qayğısını əsirgəməyən hörmətli Prezidentimizə və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm. Bu gün Azərbaycan hər bir beynəlxalq təşkilatda yüksək səviyyədə qarşılanır və ölkəmiz böyük mövqeyə malikdir".

Azərbaycanın təklifi qəbul olunduqdan sonra iclas daha 9 ölkə - Botsvana, Qvatemala, İndoneziya, Keniya, Meksika, Monqolustan, Makedoniya, Uqanda və Ukrayna tərəfindən verilən nominasiyaların müzakirəsi ilə davam etdirilmişdir. Gərgin müzakirələrin sonunda Qvatemalanın dini ayinlərlə bağlı qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı"na salınmışdır.

Geniş müzakirələrdən sonra nəzərdə tutulmuş qaydalara cavab verən Monqolustan, Nigeriya, Peru, Koreya Respublikası, Rumıniya, Moldova, Seneqal, Sloveniya, Makedoniya, Ukrayna, Venesuela və Vyetnama məxsus nümunələr haqqında da müvafiq qərar qəbul edilmişdir.

Bu siyahıda qardaş Türkiyənin təqdim etdiyi türk qəhvəsinin də yer alması olduqca fərəhlidir.

Həmin ölkələrin nümayəndələri ilk növbədə bu möhtəşəm tədbirə ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, siyahıya salınmış nümunələr xalqların öz mədəni irsinə olan sevgisini daha da artıracaq, millətlər arasında yeni mədəni körpülərin yaranmasına təkan verəcəkdir.

Bir sıra ölkələrin siyahıya düşmüş mədəniyyət nümunələri fasilə zamanı canlı olaraq nümayiş olunmuş və iştirakçılarda böyük maraq doğurmuşdur.

Sonra "8.COM 8" qərar layihəsi nəzərdən keçirilmiş və 16 maddə qəbul olunmuşdur.

Müzakirə olunan məsələlərdən biri də 2014-cü il üzrə məşvərətçi və köməkçi qurumların yaradılması ilə bağlıdır. Müvafiq istiqamətdə gələn il üçün məşvərətçi qurumun yaradılması və onun texniki şərtləri nəzərdən keçirilmişdir.

Digər müzakirə olunan məsələ 2014-cü il dövrü üçün təqdim olunmuş qovluqların sayı, 2015 və 2016-cı illərdə müraciət oluna bilən qovluqlar olmuşdur. Bildirilmişdir ki, bu sənəd vasitəsilə komitə 2015-2016-cı illərdə nəzərdən keçirilə biləcək qovluqları müəyyən edəcəkdir...

■

Qeydlərimizi yekunlaşdırarkən fərəhlə qeyd etməliyik ki, paytaxtımızın növbəti dəfə beynəlxalq əhəmiyyətli tədbirə ev sahibliyi missiyasını çox ləyaqətlə yerinə yetirdi, dünyanın müxtəlif ölkələrindən Bakıya təşrif gətirmiş qonaqlarda xoş təəssürat oyatdı.

**İnanırıq ki, bu cür təmaslar Azərbaycanın zəngin mədəni irsinin qorunması, mədəniyyət və turizm imkanlarımızın təşfiq edilməsi, habelə respublikamıza marağın daha da artırılmasına öz layiqli töhfəsini verəcəkdir...**

● **Y.HİDAYƏTOĞLU**